Elə rəhbərlər hakimiyyətə gələcəklər, siz (bəzi) əməllərini (düzgün) görəcək və (digərlərini isə) inkar edəcəksiniz. Beləliklə, kim (qəlblə) etiraz edəcəksə qurtulacaq, kim inkar edəcəksə xilas olacaq, amma həmin əməllərdən razı qalıb ardınca gedənlər günah qazanacaqlar

Möminlərin anası Ummu Sələmədən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Elə rəhbərlər hakimiyyətə gələcəklər, siz (bəzi) əməllərini (düzgün) görəcək və (digərlərini isə) inkar edəcəksiniz. Beləliklə, kim (qəlblə) etiraz edəcəksə qurtulacaq, kim inkar edəcəksə xilas olacaq, amma həmin əməllərdən razı qalıb ardınca gedənlər günah qazanacaqlar". Bu an soruşdular: "Onlara qarşı vuruşmayaqmı?". Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Namaz qıldıqları müddətdə xeyr".

[Səhih] [Muslim rəvayət etdi]

O (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, bizə rəhbərlər təyin olunacaq və biz onların bəzi əməllərindən - şəriətlə uyğun olanlardan - xəbərdar olacağıq. Bəzi əməllərini isə şəriətə müxalif olduğu üçün inkar edəcəyik. Kim münkəri inkar etməyə qadir deyilsə, lakin qəlbində ona nifrət edərsə, günah və nifaqdan qurtular. Kim onu əli və ya dili ilə inkar etməyə qadir olsa və onları inkar edərsə, günahdan və ona ortaq olmaqdan salamat olar. Kim belələrinin əməllərindən razı qalıb onlara tabe olarsa, onların həlak olduqları kimi həlak olar. Sonra Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdular: Bu xüsusiyyətlərə malik olan rəhbərlərə qarşı vuruşmayaqmı? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə onlara bunu qadağan etdi və dedi: "Xeyr, namaz qıldıqları müddətdə etməyin".

http://www.sunnah.global/hadeeth/az/show/3481